Emil Hacıyev
III kurs, ədəbi iş

Yuxusuzluq himni

Gecə də bizdən inciyib,
qaranlıqlaşır kini.
Ağcaqanad vızıldayır
"yuxusuzluq" himnini.

Gözlərim tavana baxır,
uzanmışam eləcə.
Sanki kimsə pıçıldayır:
"Darıxma çox, gələcəm".

Gözlər birtəhər qapanıb,
yola verir gecəni.
Çarpayıntək dağılmışam,
gəlib yığışdır məni...

* * *

Gecədir.
Ay işığı zillənibdir pəncərədən otağa.
Yata bilməyən adam
işgəncədir yatağa.
Xısın-xısın ağlayıram -
için-için darıxıram.
Bilinməyən uzaqdasan,
sənin üçün darıxıram.